25-30 avqust 2014-cü il tarixlərində Sankt-Peterburqda görkəmli opera müğənnisi Yelena Obraztsova adına gənc vokalçıların V Beynəlxalq müsabiqəsi və ispan vokal ustadı Konçita Badianın xatirəsinə həsr olunmuş Kamera Musiqisi Beynəlxalq Müsabiqəsi keçirilib. Dünyanın 11 ölkəsindən 147 gənc vokalçının qatıldığı bu nüfuzlu müsabiqədə Azərbaycanı Bülbül adına orta ixtisas musiqi məktəbinin şagirdləri Çinarə Əzimova və Sona İsgəndərli təmsil ediblər. Müsabiqənin münsiflər heyətinə görkəmli musiqiçilər Xuan Pons (İspaniya), Beatris Parra (Ekvador), Bruno Pratiko (İtaliya), Miqel Lerin (İspaniya), Makvala Kasraşvili (Rusiya), Qalina Pisarenko (Rusiya), Ruzanna Lisisian (Rusiya) dəvət olunublar.

Azərbaycanlı ifaçılar müsabiqədə böyük uğura imza atıblar. Belə ki, VII sinif şagirdi, beynəlxalq müsabiqələr laureatı Çinarə Əzimova münsiflər heyətinin qərarı ilə II yeri tutub. VIII sinif şagirdi, beynəlxalq müsabiqələr laureatı Sona İsgəndərli isə müsabiqənin diplomantı adına layiq görülüb.

Sentyabrın 1-də D.Şostakoviç adına Sankt-Peterburq Akademik Filarmoniyasının Böyük zalında keçirilən qaliblərin təltifolunma mərasimində və yekun konsertində Çinarə Əzimovanın çıxışı böyük maraqla qarşılanıb.

Hər iki vokalçının müəllimi sənətşünaslıq namizədi İradə Xəlilovadır.